İqtisadi İslahatların
Təhlili və Kommunikasiya
Mərkəzi



# İXRAC İCMALI

Mart 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AZƏRBAYCAN QAZINTI YANACAĞI NÖVLƏRİNİN SATIŞINDAN ƏLDƏ ETDİYİ GƏLİRLƏR SAYƏSİNDƏ NƏQLİYYAT VƏ LOGİSTİKA İNFRASTRUKTURUNA BÖYÜK SƏRMAYƏ YATIRIB

Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.



**Azərbaycan Respublikasının Prezidenti**
**cənab İLHAM ƏLİYEVİN 12 mart 2026-cı il tarixində**
**“Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusunda XIII Qlobal Bakı Forumundakı nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-fevral ayları ərzində qeyri-neft-qaz ixracı 580,7 milyon ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-fevral ayları ərzində yeyinti məhsullarının ixracı 200,6 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üçün mart sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-fevral ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 19,7% artaraq 580,7 milyon ABŞ dolları təşkil edib. 2026-cı ilin yanvar-fevral ayında yeyinti məhsulları üzrə ixrac 30,5% artaraq 200,6 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-fevral aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,3 dəfə, pambıq iplik 2,6 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 2,1 dəfə, alüminium və onlardan hazırlanan məmulatlar 37,4%, pambıq lifi 33,3%, meyvə-tərəvəz 32,7%, spirtli və spirtsiz içkilər 10,9%, çay 5,1%, artıb.

2026-cı ilin yanvar-fevral ayında aqrar məhsullar üzrə ixrac 34,6% artaraq 160,9 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 22% artaraq 52,5 milyon

ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 31,2% artaraq 213,4 milyon ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (60.7 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda meşə fındığı (57,4 milyon ABŞ dolları) ikinci, mis filizləri (44,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-ci ilin fevral ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında meşə fındığı (28.1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (27.6 milyon ABŞ dolları) ikinci, mis filizləri (24,1 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-fevral aylarında Rusiya Federasiyasına 149.1 milyon ABŞ dolları, Türkiyəyə 83.4 milyon ABŞ dolları, Gürcüstana 77,2 milyon ABŞ dolları, İsveçrəyə 67,7 milyon ABŞ dolları, Ukraynaya isə 29 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-ci ilin fevral ayında Rusiya Federasiyasına 72.1 milyon ABŞ dolları, Türkiyəyə 52 milyon ABŞ dolları, Gürcüstan 45.6 milyon ABŞ dolları, İsveçrə 29,1 milyon ABŞ dolları, Qazaxıstan isə 13,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026
İXRAC
İCMALI
mart




İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026
İXRAC
İCMALI
mart

2025 | 2026

+30.7%

**2025:** 239 mln



**2026:** 312,3 mln

# 2026-CI İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026
İXRAC
İCMALI
mart



# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2026 İXRAC İCMALI mart

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**213,4 mln $**



**Aqrar məhsullar:** 160,9 mln $ — 2025/2026 +34.6%

**Aqrar-sənaye məhsulları:** 52,5 mln $ — 2025/2026 +31.2%

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI mart



# 2026-CI İLİN FEVRAL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 · 2025

| | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 60.7 | 40.2 |
| Meşə fındığı | 57.4 | 27.9 |
| Mis filizləri və konsentratları | 44.6 | 0.34 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 31.6 | 23.6 |
| Xurma | 30.9 | 30.5 |
| Tomat (pomidor) | 26.6 | 26.7 |
| Karbamid | 21.9 | 36 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 18.5 | 21.3 |
| Alma | 17.6 | 13.6 |

2026 İXRAC İCMALI mart

# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2026 | 2025 |
|---|---|---|
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen (PE) | 17.6 | 8.4 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 13.5 | 2.1 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 11.9 | 15.1 |
| Emal olunmamış alüminium ərintiləri | 8.6 | 5.9 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 7.4 | 21.3 |
| İlkin formalı polipropilen (5 PP) | 6.2 | 6.8 |
| Tərkibində tütün olan siqaretlər | 6.2 | 1.6 |
| Nasos-kompressor boruları | 6 | 1.2 |
| Tərkibində 55 kütlə %-dən çox silisium olan ferrosilisium ərintiləri | 5.7 | 0.5 |

# 2026-CI İLİN FEVRAL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI mart

| | 2026 | 2025 |
|---|---|---|
| Meşə fındığı | 28.1 | 14 |
| Qızıl | 27.6 | 19 |
| Mis filizləri və konsentratları | 24.1 | 0 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 20.4 | 14.4 |
| Tomat (pomidor) | 12.9 | 12 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 10.3 | 13.4 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen (PE) | 10 | 3.8 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 9.7 | 1.8 |
| Alma | 9.4 | 6.7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2026-cı ilin yanvar - fevral ayı üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi,"AGRARCO" MMC, "Prime Cotton" MMC,"Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "PRİME LM" Məhdud Məsuliyyətli Cəmiyyəti ,"P-AQRO" MMC,"KHAN-EL" MMC, "MORS TRADİNG" MMC,"STP ALÜMİNİUM" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına “"SOCAR POLYMER" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: AzerGold" QSC, "AZƏRALÜMİNİUM" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq Və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC,Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi,"Socar Cape" MMC,"Sənayecihaz" EİM,"İstisu" Mineral Su Zavodu" MMC,"Qaradağ Şüşə Zavodu" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI mart



# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2026 İXRAC İCMALI mart




* “SOCAR Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** “AzerGold” QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2026-cı ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 3 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2026-cı ilin yanvar - fevral ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 32 ölkəsinə 3 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65%-ni təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 710,4 min ABŞ dolları ilə Birləşmiş Krallıq, 545.4 min ABŞ dolları ilə Lüksemburq, 374,4 min ABŞ dolları ilə İsveç, 162 min ABŞ dolları ilə Türkiyə, 152,5 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2026-CI İLİN YANVAR-FEVRAL AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2026 İXRAC İCMALI mart



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

Xidmət ixrac etdiyi 5 əsas ölkə



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat